RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2015.03.02.00060

# CAHANGİR CAHANGİROVUN YARADICILIĞINDA MAHNI JANRININ ROLU

**Dilbər Əhmədova**

## ÖZET

Məqalədə görkəmli Azərbaycan bəstəkarı C.Cahangirovun mahnı yaradıcılığı nəzərdən keçirilir. Müəllif mahnıları mövzu dairəsinə, janr xüsusiyyətlərinə görə səciyyələndirir. Xüsusilə bəstəkarın mahnı yaradıcılığında milli musiqi mənbələrinə - xalq mahnısına, muğama münasibəti məsələlərinə diqqət yetirilir ki, bunların yaradıcılıqla təcəssüm olunması bəstəkarın mahnılarına yeni cizgilər aşılayır. C.Cahangirovun yaradıcılığının bütün mərhələlərində meydana gəlmiş mahnıları izlədikdə, onun böyük bir təkamül yolu keçdiyini, mövzu, obraz və janr cəhətdən rəngarəng nümunələrin yarandığını görərik. Cahangir Cahangirovun mahnıları Azərbaycan musiqi xəzinəsində layiqli yer tutmaqla yanaşı, həmçinin, gənc bəstəkarlar nəsli üçün örnək ola biləcək gözəl sənət nümunələridir.

**Anahtar Kelimeler:** vokal, mahnı, tematika, janr xüsusiyyətləri, yaradıcılıq.

# РОЛЬ ПЕСЕННОГО ЖАНРА В ТВОРЧЕСТВЕ ДЖАХАНГИРА ДЖАНХАНГИРОВА

**Дильбер Ахмедова**

## РЕЗЮМЕ

В статье рассматривается песенное творчество выдающегося азербайджанского композитора Дж.Джахангирова. Автор дает характеристику песен всвязи с их тематикой, жанровыми особенностями. Особо подчеркивается опора на национальные корни – на народную песню и мугам, которые творчески претворяются композитором в песенном творчестве, и это привносит новые черты в музыкальный язык песен. Рассматривая песни, созданные Дж.Джахангировым на протяжении всего творческого пути, можно проследить их развитие, создание разнообразных и неповторимых песен по тематике, образному строю и жанровой характеристике. Песни Дж.Джахангирова заняли достойное место в сокровищнице азербайджанской музыки и имеют непреходящее значение для последующих поколений.

**Ключевые слова:** вокал, песня, тематика, жанровые особенности, творчество.

# THE ROLE OF THE SONG GENRE IN THE CREATIVITY OF JAHANGIR JAHANGIROV

**Dilber Ahmedova**

**ABSTRACT**

In the article is considered song creativity of prominent Azerbaijani composer J.Jahangirov. The author gives the characteristic of songs connected with their subjects, genre features. The support on national roots - on the national song and mugham which are creatively realised by the composer in song creativity is especially underlined and introduces new lines in musical language of songs. Considering the songs created by J.Jahangirov during the entire the creative ways can be followed their development is, the creation of varied and of unique of songs by category, system and the figurative of genre characteristic. The songs J.Jahangirov have taken a worthy place in the treasury of Azerbaijani music and have a lasting importance for the future generations.

**Keywords:** song, vocal, subjects, genre features, creativity.

## GİRİŞ

Azərbaycanda mahnı janrı böyük inkişaf yolu keçmişdir. Xalqın həyatında mühüm rol oynayan bu janr etik və estetik tərbiyə vasitəsi olmaqla yanaşı, həm də ictimai həyatda baş verən hadisələri əks etdirir, insanların qəlbini duyğulandırır, onlara zövq aşılayır. Bir çox Azərbaycan bəstəkarları kimi, Cahangir Cahangirovun da mahnı janrının inkişafında əhəmiyyətli rolu olmuşdur. C.Cahangirov bütün yaradıcılığı boyu mahnı janrına müraciət etmiş və bu janrın görkəmli ustadlarından biri kimi tanınmışdır. C.Cahangirovun mahnıları bugünədək öz təravətini və təsir qüvvəsini qoruyub saxlamışdır.

C.Cahangirovun yaradıcılıq yolu 1940-cı illərdən, Azərbaycan Dövlət Konservatoriyasında təhsil aldığı illərdən başlayır. Bəstəkarın yaradıcılığı inkişaf etdikcə, o, peşəkar musiqinin bütün janrlarını mənimsədikcə, onun musiqi üslubu təkamülə uğramış, musiqi dili zənginləşmişdir. Bu prosesdə bəstəkarın mahnı yaradıcılığı da inkişaf etmiş, yeni mövzu dairəsi, bədii ifadə vasitələri ilə dolğunlaşmışdır.

Bəstəkarın yaradıcılığının birinci mərhələsi, onun tələbəlik illəri musiqi sənətinin nəzəri və təcrübi surətdə mənimsənilməsi ilə başlanır. Bu dövrdə onun yaradıcılığında dahi bəstəkar, musiqişünas və ictimai xadim, Azərbaycanda peşəkar bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin böyük rolu olmuşdur. C.Cahangirovun sənət prinsipləri məhz Ü.Hacıbəylinin təsiri altında formalaşmışdır. 1945-1951-ci illərdə isə C.Cahangirov Azərbaycan Dövlət Konservatoriyasında B.Zeydmanın bəstəkarlıq sinfində təhsil almışdır.

1940-cı ildən C.Cahangirov Ü.Hacıbəylinin rəhbərlik etdiyi Azərbaycan Dövlət Mahnı və rəqs ansamblınım xor qrupunda işə başlamış, sonra xora başçılıq etmişdir. Həmçinin, 1942-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının nəzdində sazçı qızlar ansamblının bədii rəhbəri olmuşdur. Daha sonra, 1944-cü ildən o, Azərbaycan televiziyası və radiosu xor kollektivinin bədii rəhbəri təyin olunmuşdur.

Beləliklə, bu dövrdən başlayaraq, C.Cahangirovun xor sahəsində fəaliyyəti genişlənmiş və tədricən yaradıcılığında aparıcı əhəmiyyət kəsb etməyə başlamışdır. Bəstəkarın ilk əsərləri də həmin dövrə aiddir. O, rəhbərlik etdiyi xor üçün xüsusi olaraq mahnılar yazmış, həmçinin xalq mahnılarını xor üçün işləmişdir.

"Азербайджанская музыка" ("Azərbaycan musiqisi", Moskva, 1961) məqalələr

toplusunda G.Burşteynin "Массовая песня в Азербайджане" («Azərbaycanda kütləvi mahnı») məqaləsində C.Cahangirovun 1940-cı illərdə xorda fəaliyyəti və mahnı yaradıcılığı ilə bağlı maraqlı fikirlərə rast gəlirik. Müəllif Azərbaycanda kütləvi mahnı və xor əsərlərinin geniş yayılmasında C.Cahangirovun rolunu, onun Azərbaycan Radio verilişləri Komitəsinin xor kollektivinə rəhbərlik etdiyi dövrü yüksək qiymətləndirmişdir [1, s.271].

Xüsusilə müharibə (1941-1945-ci illərdə) dövründə xalqın əhval-ruhiyyəsini, mübarizə ruhunu əks etdirmək üçün mahnı ən gözəl vasitəyə çevrilmişdi. Tədqiqatçı-alim İ.Əfəndiyevanın yazdığı kimi, bu dövrün mahnılarında xalqın vətənpərvərliyini, ölkəmizin möhtəşəmliyini düşmənlə mübarizə əzmini ifadə edən mövzular əsas yer tuturdu [2].

Bu mövzular C.Cahangirovun da həmin dövrdə meydana gəlmiş mahnılarının aparıcı xəttini təşkil edərək, onun mahnı yaradıcılığında mövzu istiqamətini müəyyənləşdirmişdir. Bu dövrdə o, xalq mahnı işləmələri ilə yanaşı, əsasən vətənpərvərlik ruhunda mahnılar bəstələyirdi. Bunlardan xüsusilə onun "Partizan" (Aşıq Mirzənin sözlərinə) mahnısı böyük uğur qazanır. Məmməd Rahimin sözlərinə "416-cı diviziya" mahnısı Azərbaycanın qəhrəman oğullarının igidliklərini tərənnüm edən mahnılardan biri kimi məşhurlaşmışdır.

Qəhrəmani-vətənpərvərlik ruhunda yazılmış mahnıları ilə yanaşı, bəstəkarın bir sıra mahnılarında cəbhə və əmək mövzusunun vəhdəti öz əksini tapır. Bunlardan "Qızların nəğməsi", "Bahar nəğməsi", "Durnalar", "Moskva haqqında mahnı" və s. xalq arasında məşhurlaşmışdı. Eyni zamanda, C.Cahangirov Azərbaycan Dövlət Filarmoniyasının rəhbərlik etdiyi Mahnı və rəqs ansamblı üçün də öz mahnıları əsasında kompozisiyalar hazırlayırdı. Bu baxımdan "Al bayraq" adlı kompozisiya tamaşaçı kütləsinin böyük rəğbətini qazanmışdı [1, s.271].

1945-1946-cı illərdə C.Cahangirov Azərbaycanın bir sıra mədəniyyət və incəsənət xadimləri ilə yanaşı, Cənubi Azərbaycanda gedən geniş miqyaslı mədəni quruculuq işlərində iştirak edir, Təbrizdə yaradılmış Azərbaycan Milli Filarmoniyasında fəaliyyət göstərir.

Bu, İranda inqilabi-demokratik hərəkatın genişləndiyi mürəkkəb siyasi hadisələrlə zəngin bir dövr idi və azərbaycanlı mədəniyyət xadimlərinin bu dövrdə Təbriz şəhərindəki fəaliyyəti geniş olsa da, lakin musiqi tarixində və bəstəkarların yaradıcılığında bu dövrün üstündən bir qədər sükutla keçilir. O dövr azərbaycanlı şair və yazıçıların, bəstəkar və musiqi ifaçılarının tərcümeyi-halında əlamətdar olmuş və onların yaratdıqları bir sıra yaddaqalan əsərlər mədəniyyət xəzinəsini zənginləşdirmişdir.

C.Cahangirov bu zaman şair Etimadın sözlərinə Demokratik Azərbaycan himnini, "Təbrizim" mahnısını (şeirin müəllifi göstərilməyib) bəstələmişdir. Bu mahnılar haqqında F.Əliyevanın "Azərbaycan musiqisinin cənub səhifəsi" məqaləsində [3] məlumat verilmişdir. Bununla yanaşı, F.Əliyevanın "XX əsr Azərbaycan musiqisi: Tarix və Zamanla üz-üzə" monoqrafiyasında bu dövr daha geniş işıqlandırılmış və C.Cahangirovun bu dövrə aid daha bir neçə əsərinin adı çəkilmişdir: "İstiqlal marşı", M.Biriyanın sözlərinə "Xalq sürudu" [4]. Lakin hər iki mənbədə Demokratik Azərbaycan himni, "Təbrizim" mahnısı geniş təhlil olunmuşdur.

Onu da deməliyik ki, C.Cahangirovun həyat və yaradıcılıq yoluna həsr olunmuş tədqiqatlarda bu iki əsərin adı çəkilir [6], lakin onların mətni və təhlili ilk dəfə olaraq F.Əliyevanın adı çəkilən əsərlərində öz əksini tapmışdır. F.Əliyeva həmin mahnıların səsyazılarını "Cənubi Azərbaycan sürudları" CD-disklərindən (Sep.2002.JD 6391040400. AJA-Strasburg; II disk JD 7691118200. AJA-Strasburg) əldə etmiş, adı çəkilən

mənbələrdə poetik mətnini və melodiyasının not yazısını təqdim etmişdir.

F.Əliyeva yazır: "Bu dövrün inqilabi-vətənpərvərlik əhval-ruhiyyəsi çoxsaylı mahnı-marşlarda yaşayır. Onların hamısı vahid, tipik üslub simasına malikdir. Cənubi Azərbaycan himnləri adlı diskdə yazılmış əsərlər o dövrün musiqi nəbzi haqda əyani təsəvvür yaradır. Onlar arasında ən möhtəşəm musiqi abidələrindən birincisi C.Cahangirovun şair Etimadın sözlərinə bəstələdiyi Demokratik Azərbaycanın himnidir" [3]. Himnin mətni və musiqisi xarakterinə görə vəhdət yaradaraq, məğrur, nikbin əhval-ruhiyyəyə malikdir.

F.Əliyevanın göstərilən məqaləsində C.Cahangirovun "Təbrizim" mahnısının da not yazısı verilmişdir [3]. Bu mahnı təsirli, həzin xarakterli olub, "Təbrizin şəninə oxunan lirik etiraf" kimi qəbul olunur.

Ümumiyyətlə, XIX-XX əsrdə baş verən ictimai-siyasi hadisələr nəticəsində Təbriz şəhəri, Təbriz mövzusu ədəbiyyatımızın və musiqimizin əbədi bir mövzusuna çevrilərək, bir çox əsərlərdə, xüsusilə şeirlərdə, romanlarda və s. öz təcəssümünü tapmışdır. Qeyd etmək istərdik ki, C.Cahangirovun nümunə gətirdiyimiz mahnılarının, 1945-1946-cı illərin ictimai-siyasi hadisələri fonunda unudulması yalnız təəssüf doğurur. Mahnıların not və poetik mətnindən göründüyü kimi, bunlar müasir dövrümüz üçün də çox aktual olan bir mövzuya – vətənpərvərlik, vətənin tərənnümü mövzusuna həsr olunmuşdur və yetkin bir bəstəkarın yaradıcılığının məhsuludur. Fikrimizcə, bu mahnıların bərpası, onların müşayiətlə işlənilərək müğənnilərin və xor kollektivlərinin repertuarına daxil edilməsi vacib məsələlərdəndir. Bu, həm də C.Cahangirovun irsinin tam bərpası və öyrənilməsi yolunda atılan dəyərli addım olardı.

Bu mövzu ilə bağlı bir cəhəti də qeyd etmək istərdik ki, Cənubi Azərbaycanla bağlı mövzulara C.Cahangirov sonrakı illərdə də müxtəlif janrlı əsərlərində müraciət etmişdir. Onun mahnıları bəlkə də sovet rejiminin təsiri altında unudulmağa məruz qalsa da, C.Cahangirov bu mövzunu qəlbində yaşatmış və əsərlərində əbədiləşdirmişdir. Bu baxımdan C.Cahangirovun yaradıcılığında Mədinə Gülgün və Əli Tudənin sözlərinə yazılmış "Arazın o tayında" vokal-simfonik poemasını, Mirzə İbrahimovun "Gələcək gün" romanının motivləri əsasında bəstələnmiş "Azad" operasını bu mövzunun davamı və inkişafı kimi qəbul etmək olar.

Beləliklə, C.Cahangirovun yaradıcılıq fəaliyyətində 1940-cı illər xüsusi iz qoymuş, o, həm xormeyster, həm də bəstəkar kimi tanınmışdır. Eyni zamanda, onun yaradıcılığında müəyyən janrlar, mövzular və obrazlar dairəsi öz təcəssümünü tapmışdır ki, bunlardan da ən əsası vətənpərvərlik və lirik ruhlu mahnılar olmuşdur.

1940-cı illərin sonunda C.Cahangirovun yaradıcılığı müxtəlif janrlarda bəstələnmiş vokal və instrumental əsərlərlə - skripka üçün sonatina, xalq çalğı alətləri orkestri üçün rəqs, "Arazın o tayında" vokal-simfonik poeması, xor əsərləri, mahnı və romanslarla zənginləşir.

Bu dövrdə yaranmış mahnılar müxtəlif mövzulara həsr olunmuşdur. Onlardan Nizaminin sözlərinə "Gül camalın" romansı, "Qəzəl" xoru dahi şairin 800 illik yubileyinə həsr olunmuş əsərlər silsiləsində özünəməxsus yer tutur. Vətəni, partiyanı tərənnüm edən təntənəli himn - "Partiya", sülh uğrunda mübarizə mövzusuna həsr olunmuş "Dünyaya sülh" mahnılarının adının çəkmək olar. 1948-ci ildə yazılmış "Mərdlik nəğməsi" respublika müsabiqəsində mükafata layiq görülür. "Qara gözlər" mahnısı C.Cahangirovun vokal irsində lirik məhəbbət xəttini davam etdirir. Həmin dövrdə həmçinin böyük rus şairi A.S.Puşkinin 150 illik yubileyi münasibətilə onun sözlərinə xor üçün müşayətsiz oxunan "Soruşma" mahnısı meydana gəlir.

1950-ci illərdə C.Cahangirov bir sıra iri formalı əsərlər yaratmışdır: Skripka və orkestr üçün Konsert, “Bayram” süitası, “Təntənəli yürüş”, “Dostluq nəğməsi” süitası və s. Eyni zamanda, o, musiqili-teatr sahəsinə də müraciət edərək, “Azad” operasını bəstələmiş və bu əsər böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Bu illərdə C.Cahangirovun yaradıcılığında mahnı janrı daha geniş təmsil olunur. Onun bəstələdiyi “Nazənin” (Xaqaninin sözlərinə), “Xəzər”, “Vətən qızları”, “Bahar mahnısı”, “Bahar olsun” mahnıları lirik mahnı janrının gözəl nümunələri kimi müğənnilərin repertuarında səslənir. Xüsusilə, “Dan ulduzu, bir də mən”, “Gözlərin” mahnıları böyük rəğbət qazanır. Bu lirik mahnılarda təmiz, saf məhəbbət hisləri tərənnüm olunur.

Bu dövrdə C.Cahangirovun lirik mahnıları çox populyarlaşır. Bunlardan İslam Səfərlinin sözlərinə yazılmış “Ana” mahnısı xüsusilə qeyd olunmalıdır. Bəstəkar bu mahnıda ifadəli reçitativlə segah muğam intonasiyalarını qovuşduraraq, qəlboxşayan bir melodiya yaratmışdır.

C.Cahangirovun mahnı yaradıcılığındakı janr rəngarəngliyi diqqəti cəlb edir. Belə ki, qeyd etdiyimiz lirik mahnılarla yanaşı, bəstəkar vətənə həsr olunmuş mahnı-himn, mahnı-marş, mahnı-vals janrında da əsərlər bəstələyir. Məsələn, Abbas Səhhətin sözlərinə “Vətən” mahnısında bəstəkar aşıq musiqi üslubunu marş ritmi ilə qovuşduraraq, orijinal janr sintezi yarartmışdır. “Bakı” mahnısı isə himn janrında yazılmış lirik səpkili əsərdir, ağır templi vals ritmindədir. Zeynal Cabbarzadənin sözlərinə yazılmış “Ana Vətən” mahnısı lirik himn-monoloq kimi diqqəti cəlb edir. Rəfiq Zəkanın sözlərinə yazılmış “Qarabağ” mahnısında isə doğma yurdun gözəllikləri vəsf edilir.

Bəstəkar bir sıra uşaq mahnıları da yaratmışdır. Məktəblilərin həyatından bəhs edən “Pioner yürüş mahnısı”, uşaqların təbiətlə bağlı təsəvvürlərini əks etdirən “Dəniz”, uşaqlarda əməyə qarşı rəğbət hissləri oyadan “Tonqal başında” oyun-mahnısı bəstəkarın bu mövzuda yazılmış ən gözəl əsərləridir. Onun uşaq mahnıları məktəblilərin mahnı repertuarında öz əksini tapır və kiçik yaşlı uşaqların estetik və vətənpərvərlik tərbiyəsinin əsas vasitələrindən birinə çevrilir.

1950-ci illərdən başlayaraq, C.Cahangirov müxtəlif teatrlarda səhnələşdirilən dram tamaşalarına və “Azərbaycanfilm” kinostudiyasında çəkilən filmlərə yaddaqalan musiqi bəstələmişdir. C.Cahangirovun həm kinofilmlərə, həm də dram tamaşalarına yazdığı musiqi əsərin ayrilmaz tərkib hissəsinə çevrilərək, emosional təsirinin artırılmasına xidmət edir. Bu əsərlərdə C.Cahangirov obrazların xarakterinin açılmasında mahnıya böyük yer vermişdir. Təsadüf deyil ki, bu qəlboxşayan mahnılar taetr tamaşalarından, ekrandan ayrılaraq, xalq arasında geniş yayılmışdır. Buna misal olaraq, C.Cahangirovun “Yenilməz batalyon” filmindən “Teymurun mahnısı”nı, “Koroğlu” filmindən “Rəqqasə qızın mahnısını”, “Dəli Həsən”in mahnısını, “Dəli Kür” filmindən “Ana Kür”, “Bayatılar” mahnılarını, “Ana laylası” pyesindən “Alagöz” adı ilə məhşurlaşmış “Lirik mahnı”nı və s. göstərə bilərik.

1960-cı illərdə kantata, oratoriya və xor əsərlərinin meydana gəlməsi C.Cahangirovun mahnılarının da ideya-bədii cəhətdən və professional səviyyə etibarilə yüksəlməsinə, musiqi dilinin zənginləşdirilməsinə təsir göstərmişdir. Bu illərdə C.Cahangirovun yaradıcılığında lirik mahnılarla yanaşı, satirik mahnı janrı da yer alır. Bu da böyük Azərbaycan satirik şairi Mirzə Ələkbər Sabirin 100 illik yubileyinin qeyd olunması ilə bağlı idi. Bəstəkar yubiley ərəfəsində həm “Sabir” oratoriyasını, həm də şairin sözlərinə bir neçə satirik mahnılarını bəstələyir.

Bəstəkarın mahnı yaradıcılığında romans-qəzəl janrında yazılmış nümunələr də

xüsusi yer tutur. Xaqaninin sözlərinə "Nazənin", Nəsiminin sözlərinə "Həqq məndədir", Hüseyn Cavidin sözlərinə "Badə gözəldir", Cəfər Cabbarlının sözlərinə "Gördüm üzünü" romanslarını göstərmək olar. Bu romansların poetik mətninin əsasını əruz vəznində yazılmış qəzəllər təşkil etsə də, bəstəkarın təfsirində onlar hər dəfə rəngarəng cəhətlərlə təqdim olunur və müxtəlif xarakter kəsb edir.

**SONUÇ**

C.Cahangirovun mahnılarının məzmun dairəsinin, janr xüsusiyyətlərinin və musiqi dilinin araşdırılması onların məziyyətlərini üzə çıxarmağa imkan verir. Bəstəkarın mahnıları mövzu baxımından çoxcəhətlidir: vətən sevgisi, vətənin gözəlliklərinin təsviri, əmək adamlarının tərənnümü, lirik məhəbbət hisslərinin təcəssümü və s.

C.Cahangirovun yaradıcılığının bütün mərhələlərində meydana gəlmiş mahnıları izlədikdə, onun böyük bir təkamül yolu keçdiyini, mövzu, obraz və janr cəhətdən rəngarəng nümunələrin yarandığını görərik. Cahangir Cahangirovun mahnıları Azərbaycan musiqi xəzinəsində layiqli yer tutmaqla yanaşı, həmçinin, gənc bəstəkarlar nəsli üçün örnək ola biləcək gözəl sənət nümunələridir.

**KAYNAKLAR**


1. Бурштейн Г. Массовая песня в Азербайджане. // В кн. «Азербайджанская музыка». Сборник статей. М.: Музгиз, 1971. с.271.
2. Эфендиева И.М. Азербайджанская советская песня. Б.: 1983. 150с. – с.48.
3. Əliyeva F.Ş. Azərbaycan musiqisinin cənub səhifəsi. // "Musiqi Dünyası" jurnalı, №3-4(33), 2007, s.98-99.
4. Əliyeva F.Ş. XX əsr Azərbaycan musiqisi: Tarix və Zamanla üz-üzə. B.: Elm, 2007. s. 96.
5. Bu məsələ ilə əlaqədar olaraq S.Qasımovanın əsərlərində, məsələn - Касимова С. Джангир Джангиров. Баку: Азернешр, 1964. 68 с. – monoqrafiyasında müəyyən məlumata rast gəlinir. Lakin son illərdə işıq üzü görmüş biblioqrafik nəşrdə - Cahangir Cahangirov. Biblioqrafiya. (tərtib edəni T.Məmmədova). M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. B.: 2011. 99s. – ümumiyyətlə bəstəkarın tərcümeyi-halında bu illərdəki fəaliyyəti və yazdığı əsərlər diqqətdən kənarda qalmışdır.